# Xəstəxanalar və Müəssisələr xidməti və AN üzvü

Bir çox Anonim Narkomanlar üzvləri Xəstəxanalar və Müəssisələr xidmətini öz şəxsi sağalmalarının vacib bir hissəsi hesab ediblər. X&M xidmətində aktiv şəkildə iştirak edən üzvlərimizin təcrübələri icmamız üçün çox önəmlidir. X&M xidmətində öhdəlik götürmək, AN xidmət strukturunda iştirak etmək və özümüzü icmamızın bir hissəsi kimi hiss etməyin çox yollarından biridir.

Biz aktiv asılılığın həbsxana, xəstəxana və ölümə apardığını bilirik. Həmçinin AN-in əsas məqsədi hələ də əzab çəkən asılıya sağalma xəbərini çatdırmaqdır. AN-in sağalma xəbərinin xəstəxana və müəssisələrə çatdırılmasının bizim prioritetlərimizdən biri olması təəccüblü deyil. AN üzvləri bu inancı dünyanın müxtəlif yerlərində Xəstəxanalar və Müəssisələr (X&M) komitələri formalaşdıraraq daim dəstəkləyiblər.

Yenə də bəzi AN üzvləri X&M xidmətində iştirak etməkdə tərəddüd ediblər, çünki onlar heç vaxt həbs olunmayıb, saxlanılmayıb və ya hər hansı bir müəssisəyə yerləşdirilməyiblər. Şəxsi təcrübəmiz və düzgün hazırlığımızla hamımız sağalma xəbərimizi çatdırmaq üçün özünəməxsus şəkildə uyğun namizədlərik.

Bu broşür Anonim Narkomanlar X&M xidmətinə qısa bir giriş olmaqla yanaşı, daha çox üzvü bu xidmət imkanından faydalanmağa təşviq etmək məqsədi daşıyır.

## X&M toplantısı nədir?

X&M toplantısının məqsədi mütəmadi Anonim Narkomanlar toplantılarına tam çıxışı olmayan asılılara sağalma xəbərini çatdırmaqdır. Uzunmüddətli müəssisələrdə keçirilənlər istisna olmaqla, X&M toplantıları həmin görüşdə iştirak edən asılılara AN proqramının əsaslarını tanıtmaq üçün nəzərdə tutulub.

X&M toplantısı haqqında dəqiq anlayış formalaşdırmaq məqsədilə xidmət strukturumuz barədə öyrənmək vacibdir. X&M toplantısı adətən yerli xidmət komitəsinin X&M alt-komitəsi tərəfindən həyata keçirilən bir xidmətdir. Bu toplantılar xəstəxanalar, reabilitasiya mərkəzləri, islah müəssisələri və yeniyetmələr üçün nəzərdə tutulmuş müəssisələrdə baş tutur. Adi AN toplantısından fərqli olaraq, X&M toplantısının həmişə X&M alt-komitəsinin rəhbərliyi altında keçirilməsi çox vacibdir.

## Mən necə iştirak edim?

Ərazi üzrə X&M alt-komitəsi planlaşdırma və təşkilatın mərkəzidir. Başlamaq üçün bura ideal yerdir! İlk görüləcək iş ərazi X&M alt-komitəsinin toplantısına qatılmaq və yeni və maraqlanan üzvlər üçün tanıtım toplantısında iştirak etməkdir. Tanıtım toplantıları üzvlərə X&M-də xidmət üçün lazım olan məlumatlar və təmizlik müddəti tələbləri ilə tanış olmağa kömək edir. Bu toplantılarda xəbərimizi müəssisələrə aparmaq üçün üzvlər seçilir. Adətən, növbəti addım müşahidəçi kimi bir X&M toplantısında iştirak etmək olur. Bu proses vasitəsilə üzvlər X&M xidmətinin nə olduğunu öyrənir və hansı səviyyədə iştirak edəcəklərinə qərar verirlər.

## Mən niyə iştirak edim?

Xəstəxana və müəssisələr xidməti asılılara minnətdarlıq nümayiş etdirmək, məsuliyyətlərini yerinə yetirmək və AN xəbərini təmənnasız paylaşmaq imkanı verir. Bu həmçinin bizə təmiz qalmağa kömək edən və gəlməyə davam etdirən təsirli bir vasitədir. X&M xəbəri AN xəbəri ilə eynidir: "Bir asılı, istənilən bir asılı, narkotik istifadəsini dayandıra, istifadə etmək istəyini itirə və yaşamaq üçün yeni bir həyat yolu tapa bilər."* Bizim paylaşdığımız hədiyyə Anonim Narkomanlar proqramı vasitəsilə aktiv asılılıqdan azadlıq və ümiddir. Bu xəbəri çatdırmaq istəyən hər bir AN üzvü X&M xidmətində iştirak etməyə təşviq olunur. Anonim Narkomanlarda xidmət etməyin bir çox yolu var və bir çoxumuz X&M xidmətinin, sağalmamızın ən mükafatlandırıcı tərəfi olduğunu anlamışıq. Bu broşürün səni X&M xidmətində iştirak etməyə ruhlandıracağına və sənin də bu mükafatları əldə edəcəyinə ümid edirik!

* Əsas Mətn, səh. 65.

Copyright © 2026 by
Narcotics Anonymous World Services, Inc.
Bütün hüquqlar qorunur

World Service Office
PO Box 9999
Van Nuys, CA 91409 USA
Tel. +1/818 773-9999
www.na.org

World Service Office–CANADA
Mississauga, Ontario

World Service Office–EUROPE
Brussels, Belgium
Tel. +32/2/646-6012

World Service Office–IRAN
Tehran, Iran
www.wsoiran.org

Bu AN İcmasının təsdiq etdiyi ədəbiyyatın tərcüməsidir

Narcotics Anonymous, , , , və The NA Way
Narcotics Anonymous World Services, Incorporated-in
qeydiyyata alınmış əmtəə nişanlarıdır.

ISBN 9781633805101 Azerbaijani 1/26

WSO Catalog Item No. AZ3120

**Narcotics Anonymous®**

**Anonim Narkomanlar**

IP Nr. 20-AZ

# Xəstəxanalar və Müəssisələr xidməti və AN üzvü